

# Şəkildən boylanan qadın

(hekayə)

*Vahid MƏHƏRRƏMOV*

Yeganə övladım Səmayənin toyundan iki ay keçməmiş həyat yoldaşım Rəna dünyasını dəyişdi. Rəhmətliyin ölümü qəfil oldu. Xəstələnməyi ilə dünyadan köçməyi bir neçə gün çəkdi. Toyun sevincini yaşadığımız günlərdə yasa batdıq. Bu itki məni yaman sarsıtdı. Xeyli müddət əlim qələmə yatmadı.

Günlər keçdikcə Rənanın yoxluğuna alışıb tənha yaşayırdım. Çətin də olsa, təzə həyata öyrəşirdim. Heç kəsə əziyyət verməmdən özüm bazarlıq edib yeməyimi bişirirdim. Arada qızım Səmayə də mənə baş çəkir, pal-paltarımı yuyub ev-eşiyi səliqə-sahmana salırdı. Həftələr, aylar arxada qaldıqca, yavaş-yavaş əlim qələmə yatırdı. Bir neçə hekayə yazıb jurnala, qəzetlərə təqdim etdim. Deyəsən, pis alınmamışdı, - tez çap olundu, hekayələrimin işıq üzü görməyini çox gözləmədim. Ötən həftə dördüncü kitabımı nəşriyyata vermişdim. Evdə tək qaldığımdan oxumağa, yazıb-yaratmağa vaxtım çox olurdu. Son günlər maraqlı əsərlər yazmağa köklənmişdim. Yazdıqca həvəsə gəlirdim.

Bir gün metrodan çıxıb asta addımlarla evə gəlirdim. Birdən qaraqaş, qaragöz, 20-21 yaşlarında gözəl-göyçək bir qız qarşımda dayanıb mənimlə çox səmimi görüşdü. Gülümsəyə-gülümsəyə dedi ki, kitablarınızı böyük maraqla oxuyuram: ”Əsərlərinizdən xoşum gəlir. Bu yaxınlarda jurnalda ”Ürəyimi yandıran sevgi” adlı hekayənizi oxudum. Çox maraqlı və təsirli idi. Baş verən hadisələri kədərli notlar üstündə təsvir etmisiniz. Yaradıcılığınız ruhuma yaxındır. Sizi həmişə uzaqdan görsəm də, yaxınlaşmağa cürət etmirdim. Axır ki, bu gün özümdə güc tapıb çoxdan ürəyimdən keçən addımı atdım. Xeyli vaxt idi istəyirdim ki, sizinlə tanış olam, ünsiyyət quram. Adım Ceyrandır, ingilis dilini öyrənmək arzusu məni universitetin auditoriyalarına gətirib çıxarıb. Dördüncü kursda oxuyuram, inşallah, bu gün-sabah ali təhsilimi başa vuracam.”

Xoş sözlərinə görə minnətdarlıq edib bu şıltaq, gülərüz qızdan ayrıldım. Ceyranın adı özünə yaraşırdı, çox gözəl idi. Telefon nömrəmi istəsə də, vermədim. ”İstəmirəm kimsə zəng vurub məni narahat eləsin, vaxtımı alıb iş-gücümdən ayırsın” - dedim.

Onunla bir neçə dəfə metronun çıxışında qarşılaşdıq. Elə bil qız həmin vaxtlarda orada dayanıb gəlişimi gözləyirdi. Görən kimi də mənə yaxınlaşırdı.

Bir dəfə onunla rastlaşanda yükümün ağır olduğunu görüb sellafon torbaları əlimdən aldı. Evə qədər mənə kömək elədi, hətta ayaqqabılarını çıxarıb otağa da girdi, aldıqlarımı yerbəyer elədi. Sonra mətbəxə keçib çaydanı isidib mənə çay da süzdü. Çayı içib bir az özümə gəldim, yorğunluğum keçdi. Onun gəlişi birinci dəfə olsa da, evimdə çox sərbəst hərəkət edirdi. Elə bil burada doğulub böyümüşdü, hər şeyin yerini bilirdi. Yenə də dil boğaza qoymadan mənə böyük rəğbəti olduğunu deyib bir ucdan yazdıqlarımı tərifləyirdi. Amma heç bilmirdim ki, Ceyran bu sözləri ürəkdən deyir, yoxsa, boğazdan yuxarı danışır. Sağollaşıb gedərkən qapının ağzında bu şeytan, dilli-dilavər qız qəflətən məni öpdü. Tez geri çəkildim, bunu ondan gözləmirdim. Mən bu öpüşü istəməsəm də, Ceyranın dodaqları, isti nəfəsi sifətimə dəyəndə bədənim gizildədi, bir neçə dəqiqə süst qaldım. Qız məni öpən kimi qapını bağlayıb tələsik getdi. Arxasınca çıxıb baxanda onun evdən xeyli uzaqlaşdığını gördüm. Ceyrandan gələn xoş qoxu mənə doğma və tanış idi.

O gedəndən sonra öz-özümə plan cızdım ki, əgər rastlaşsam ona üz göstərməyim, ondan qaçım. Yaşımın bu çağında belə şeylər mənə yaraşmaz. Sabah-birisigün baba olacağam. Onunla qarşılaşmamaq üçün yolumu metronun qarşısından deyil, başqa səmtdən saldım. İki həftə onunla üzüzə gəlmədim, fikirləşdim ki, yəqin hər şey bununla bitər. Daha onunla görüşmərik. Bir gün evimin qapısı astaca döyüldü. ”Kim ola bilər?” - deyə öz-özümə sual verdim. Qapını açanda qarşımda Ceyranı gördüm. Qaraqaş, qaragöz bu şeytan qız çox gözəl geyimdə, üz-gözündə bir dünya sevinc qarşımda dayanmışdı. Nə üçün gəldiyini soruşanda dedi ki, neçə vaxtdır məni görmədiyindən nigaran qalıb. ”Fikirləşdim ki, Allah eləməmiş xəstələnmisiniz, gəldim sizə baş çəkib hal-əhval tutum”, - dedi.

İki fikir arasında vurnuxa-vurnuxa qalmışdım. Bilmirdim ki, onu içəri buraxım, yoxsa kobudluq göstərib qapıdan geri qaytarım? Belə gözəl qızı evimdə acılamaq mənə yaraşmazdı. Onun gülümsər çöhrəsi, mehriban baxışları qarşısında aciz qalıb qapının ağzından çəkildim. Ceyran içəri girib mənimlə hal-əhval tutdu. Ovqatı yaxşı idi, üzü gülürdü. Çox zövqlə geyinmişdi. Paltarının rəngi alışıb yanan sifəti ilə üst-üstə düşürdü. Mənə dikili qalmış qara, iri gözləri sevinc içindəydi. Ordan-burdan söz salıb təzə nə yazdığımla, hansı əsərin üzərində işlədiyimlə maraqlandı. Yenə də ”Ürəyimi yandıran sevgi” hekayəsindən danışdı. Deyəsən, həmin əsər onun yaman xoşuna gəlmişdi. Heç dilindən düşmürdü, elə hey o hekayədən danışırdı. Birdən pörtüb, alışıb yanan üzünü mənə tutub qəribə tərzdə soruşdu:

- Doğrudanmı elə bir hadisə olub? Yoxsa qələmə aldıqlarınız öz beyninizin məhsuludur, uydurmadır? İnanmıram ki, sizin kimi söz adamı istədiyi qıza ürəyini açmaqda çətinlik çəksin. Vurulduğunuz o gözəl xanıma ”sevirəm” - deyib eşq elan eləmək sizin üçün nə çətin bir iş imiş ki? Əgər bu bir kəlmə sözü dilinizə gətirsəydiniz, yəqin ki, o qız sizə ”yox” deməyəcəkdi. Arzunuza çatıb sevdiyinizə qovuşar, ömrünüz boyu qəm içində qovrulub o gözəlin həsrətini çəkməzdiniz.

- Həyatda hər şey ola bilər, ay Ceyran bala. Sən niyə belə işlərə şübhə ilə yanaşırsan? Axı ürək kitab deyil ki, onu açıb hər adamın qarşısına qoyub ”buyur, götür oxu” - deyəsən. Deməli, qismət deyilmiş. Əgər sən dediklərini mən vaxtında eləsəydim, heç bu ”Ürəyimi yandıran sevgi” hekayəsi də yazılmazdı, sən də onu oxuyub belə təsirlənməzdin.

- Hə, bax bunu düz deyirsiniz. Amma istəklinizə qovuşsaydınız daha yaxşı olardı. Nə bilim, vallah, Allah bilən məsləhətdir.

Ceyran altdan-altdan məni süzüb şıltaqcasına soruşdu:

- Yaradıcı insanın zövqü pis olmaz. Sevdiyiniz Mənsurə yəqin çox gözəl imiş, eləmi? Kaş mən o qızı görüb, onunla danışa biləydim. Onda sizin ürəyinizdə qalan sözləri mən ona çatdırardım. Sizə əzab verdiyinə görə hələ onu bir az danlayardım da. Əlindən tutub evinizə gətirər, gec də olsa sizi görüşdürərdim.

- Əgər illər uzunu mən onu görə bilməmişəmsə, sən çətin ki, onu tapasan. Bir də ki, axı onun nə günahı olub ki, sən onu danlayasan.

Deyəsən, sözlərim bu şeytan qızın xoşuna gəldi. Susub, bir anlıq fikrə getdi. Sonra gəlib yanımda oturdu, diqqətlə yazı masama baxdı, əlimdən tutub başını sinəmə söykədi. Öz övladım kimi onun saçını sığalladım. Heykəl kimi donub yerimdə qalmışdım. Bir neçə dəqiqədən sonra Ceyran başını qaldırıb mehriban-mehriban üzümə baxıb, nə üçün çölə-bayıra çıxmadığımı soruşdu. Susmağın meydanını geniş edib heç nə demədim, gözlərimi bir nöqtəyə zillədim. Qız bir azdan qalxıb çay dəmləmək üçün mətbəxə keçdi. Ondan gələn doğma qoxu yenə də məni sehirlədi. Bu ürəyəyatımlı qoxunu nə vaxtsa kimdəsə duyub hiss etmişdim. Bəs kimdən, nə vaxt, harada? Ceyran çay dəmləyənə qədər mən fikrə gedib yaddaşımda keçmiş illəri, keçmiş günləri ha ələk-vələk eləsəm də, ”arxiv”i tökub baxsam da, bir şey ortalığa çıxara bilmirdim. Həmin gün ilk dəfə hiss etdim ki, deyəsən, insanın qoxu yaddaşı zəif olur. Bütün qoxuları yaddaşında saxlaya bilmir. Dünyanın qəribə işləri az deyilmiş. Elə tanımadığım bu şeytan qızın qısa müddət ərzində evimdə peyda olması, belə tez isinişib doğmalaşması, bu cür mehribanlıq göstərməsi mənə qəribə gəlirdi. Hiss edirdim ki, qız heç yanımdan uzaqlaşmaq istəmir. Sanki yuxu görürdüm.

Ceyran çay gətirdi. Qarşı-qarşıya oturub doğma adamlar kimi sakitcə çayımızı içdik. Bu gülərüz qız baxışlarını üzümə dikib soruşdu:

- Müəllim, sizdən çox qəribə kişi qoxusu gəlir. Nədənsə, bu qoxu ürəyimə yatır, məni özünə çəkir. Yəqin hər kişidə belə qoxu olmur, bəlkə siz yazıçı olduğunuzdan belədir?

- Məni çox təəccübləndirdin, heç bunu bilmirdim. Bu sözləri birinci dəfədir ki, eşidirəm, - deyə onu başdan-ayağa süzüb çayımdan bir neçə qurtum içdim.

Ceyran evimdə xeyli ləngidi. Söhbətimiz maraqlı olduğundan vaxtın necə sürətlə ötdüyünü bilmədik. Sağollaşıb qapıdan çıxarkən Ceyran yenə də məni öpmək istədi. Tez geri çəkildim, amma o məndən cəld tərpəndi.

Əvvəllər Ceyranın evimə ayaq açması ürəyimcə deyildi. Amma günlər keçdikcə gəlişini həsrətlə gözləyirdim. Çünki o gəlişi ilə mənim bu ikiotaqlı mənzilimə bir dünya sevinc gətirirdi. Sanki ildırım çaxırdı, evimin hər tərəfi işıqlanıb nura boyanırdı. Onu tez-tez görmək istəyirdim, gözüm yollara dikili qalırdı, səbrimi basa bilməyib pəncərədən çölə boylanırdım. Bir də görürdüm budur e-ee, dəcəl qız yavaş-yavaş gəlir. Tez qapını taybatay açır, Ceyranı qucaqlayıb öz balam kimi bağrıma basırdım. O da başını sinəmə qoyub bir xeyli ayaq üstə qalırdı. Sonra yenə də məndən çox gözəl kişi qoxusu gəldiyini deyirdi. Ceyran başını sinəmə sıxanda mən də onun saçını sığallayırdım, xoş ətrini içimə çəkirdim. Amma bu qoxunu əvvəllər harada və kimdən duyduğumu yadıma sala bilmirdim. Qız telefon nömrəmi də götürmüşdü. Gəlməyəndə zəng vururdu, səsini eşidirdim

Ceyran bizə tez-tez gəlirdi. Sanki tarixin təkəri geriyə dönmüşdü, yaşımın bu çağında ömrümün iyirmi, otuz il qabaqkı günlərini təzədən yaşayırdım. Elə bil Ceyran yaşdaydım, xeyli gümrahlaşmışdım, içim ocaq üstünə qoyulmuş qazan kimi qaynayırdı. Bu şeytan qızı çox istəyirdim, hər dəqiqə yanımda olmağını arzulayırdım. Ürəyimdə ona qəribə bir doğmalıq hissi baş qaldırmışdı. Ceyran qısa müddət ərzində bütün dərd-kədərimi, ağrı-acılarımı unutdurmuşdu. Əsərlərimi həvəslə yazırdım. Bir dəfə bu dəcəl qız məndən xahiş etdi ki, bu dostluqdan da bir hekayə yazım. Mən də ona ürəyimdən keçən bir şey yazacağıma soz verdim.

Elə bil günlər də tez ötüb keçirdi. İşlərim çox olsa da vaxtın axarında itib-batmırdım, zamanın nəbzini tuturdum. Ceyran dərsdən çıxandan sonra yanıma gəlirdi. Bir dəfə onunla söhbət edəndə öyrəndim ki, atası neçə illər əvvəl anası ilə onu atıb başqası ilə evlənib. Evin tək övladı olan Ceyran atasını heç xatırlamırdı da. Çünki o evdən birdəfəlik çıxıb gedəndə qız dörd yaşın içindəymiş. Dediyinə görə, anası kitabxanada işləyir. Ceyranla belə mehriban görüşlərimizin nə vaxta qədər davam edəcəyini, bu ocağın neçə il yanacağını bilmirdim. Ona elə öyrəşmişdim ki, bir gün görməsəydim darıxırdım. Bir az gecikən kimi tez zəng vurub harada olduğunu soruşurdum. O da tələsik ”Yoldayam, gəlirəm” - deyirdi. Səsini eşidən kimi gözlərimdə sevinc parlayır, çöhrəmə təbəssüm qonurdu. Telefon danışığından çox keçmirdi ki, Ceyran qapımı döyürdü. Uşaq atasının üstünə yüyürən kimi, mən də onun qabağına qaçır, qucaqlayıb saçlarından öpürdüm. Oturub çay içib yemək yeyir, söhbətləşirdik. Nə o məndən doyurdu, nə də mən ondan. Ceyrandan ilham alıb yazıb-yaradırdım. Səsi, gülüşü, danışığı mənzilimin divarlarında əks-səda verirdi. Ceyran evdən gedəndən sonra da bu səsləri eşidirdim.

Bir gün qapımı daha böyük sevinclə döydü. Gülümsəyə-gülümsəyə ”Dünən elçilər gəlmişdi. Məni istəyən oğlan anamın uzaq qohumlarındandır, pis adamlara oxşamırlar. Düzdür, ardımca düşən, məni istəyən oğlan ali təhsilli deyil, amma nə fərqi var e-ee. Əsas odur ki, xasiyyəti, görkəmi ürəyimə yatır.” - dedi. Bu xəbər ürəyimcə olmasa da, üzdə biruzə vermədim. Ceyranın alnından öpüb təbrik elədim. Deyəsən, ayrılıq anı yaxınlaşırdı, neçə vaxtdan bəri yanan ocaq yavaş-yavaş sönürdü. Yəqin bu şeytan qızın ayaqları bir daha buralara dəyməyəcəkdi. Bundan sonra da Ceyran üçün darıxıb onun fikrini çəkəcəm, həsrətlə zəngini, gəlişini gözləyəcəm.

Görüşümüz həmişəki kimi şən keçdi. Ayrılarkən ”Bu tərəflərdə az görsən, birdən sevgilin ardınca düşüb buralara gələr, evimə gəldiyini bilər, birdən pis şeylər fikirləşər. Get öz həyatını yaşa, məni unut, yaddan çıxar.” - dedim. Ceyran bildirdi ki, bunu bacarmaz, xəlvəti də olsa, mənə baş çəkəcək. Gözlərimiz dolmuşdu, elə bil bir daha görüşməyəcəkdik. Qapıdan çıxandan sonra uzaqdan mənə əl edən Ceyran çox keçmədi ki, adamların arasında gözdən itdi.

Həmin gündən sonra bu gözəl qız evimə seyrək gəlsə də, tez-tez zəng vurub hal-əhval tuturdu. Yaxın günlərdə toyu olmalı idi. Onsuz yaman üzülürdüm, günlərim darıxdırıcı keçirdi. Elə bil canımın yarısını itirmişdim. Fikirləşirdim ki, yəqin toydan sonra nə zəng vurar, nə də gələr. Amma belə olmadı. Bir gün günortadan sonra qapım döyüldü. Açanda qarşımda Ceyranı gördüm. Gözlərimə inanmadım, tez qucağıma atıldı, saçlarından öpdüm. Ovqatı yaxşı idi, deyib-gülürdü. Toyundan xeyli danışdı. Üz-gözündən bəxtəvərlik yağırdı. Söhbətinə ara verib mənə çay süzdü. Elə bil ötən müddətdə Ceyran xeyli gözəlləşmişdi. Çay süfrəsini yığışdırandan sonra yenə də başını sinəmə qoydu. ”Qoxunu almasam yaşaya bilmərəm. Məni sənə bağlayan o doğma qoxudur” - dedi.

Bir dəfə yanıma gələndə toy şəkillərini də gətirmişdi. Amma kaş heç gətirməyəydi. Bəylə gəlinin ətrafına toplaşan adamları bir-bir mənə göstərib tanış elədi. Barmağını qadınlardan birinin üstünə qoyub dedi ki, anamdır. Baxışlarım bu şəklə zillənib qaldı. Daha Ceyran nə deyirdisə eşitmirdim, eləcə şəklə baxa-baxa donub yerimdə qalmışdım. Nəzərlərimi çəkə bilmədiyim bu şəkil bir anlıq məni yaşanıb arxada qalmış illərə qaytardı. Aman Allah, bu ola bilməzdi! İnana bilmirdim ki, şəkildən boylanan qadın - mənim illərcə əvvəl sevib ürəyimi aça bilmədiyim Mənsurədir. Şəkli bir az da gözlərimə yaxınlaşdırdım. Daha şübhə yeri qalmadı, o idi, Mənsurə idi! Yaşa dolsa da, sifəti dəyişilsə də gözləri, baxışları olduğu kimi qalmışdı. Deməli, Ceyranın anası mənim illərcə əvvəl sevdiyim, böyük məhəbbət bəslədiyim, ürəyimi aça bilmədiyim, həsrətinin odunda yanıb qovrulduğum Mənsurə imiş. Təsadüfə bir bax. Kövrəldiyimdən gözlərim yaşarmışdı, qəhər məni boğurdu. Ağzımı açıb bir kəlmə deyə bilmirdim. Eləcə, baxışlarımı şəkildən çəkmədən susub heykəl kimi dayanmışdım. İki daş arasında qalmışdım, bilmirdim ki, illərcə əvvəl sevib qovuşa bilmədiyim qadının onun anası olduğunu Ceyrana deyim, yoxsa deməyim? Bu şıltaq qızın qoxusunun mənə haradan doğma olduğunu yalnız indi bildim. Deməli, anasının qoxusu balasına da keçibmiş. Dünyanın işlərinə bir bax, anasını sevib itirsəm də, təsadüfən qızını tapmışdım. Bundan sonra Ceyranı daha çox istəyəcəm, daha çox sevəcəm. ”Ürəyimi yandıran sevgi” hekayəsinin qəhrəmanının anası olduğunu isə heç vaxt ona deməyəcəm. Qoy bu sirr kimi həmişəlik ürəyimdə qalsın...

Şəklə baxıb kövrəldiyimi görən Ceyran nə üçün haldan-hala düşdüyümü soruşdu. Yalandan dedim ki, öz toyumu xatırladım, ötən günlər yadıma düşdü. Onu sinəmə sıxıb asta-asta saçlarını sığalladım. Ceyran bu gündən sonra atasız olduğunu hiss etməyəcəkdi. İllərcə əvvəl sevdiyim, qəlbən bağlandığım, həsrətini çəkdiyim Mənsurədən arxayın oldum. Bildim ki, sağ-salamatdır, ailə həyatı uğursuz olsa da, evi var, işi var, övladı var.

Budur, qapım yenə döyülür, çox güman ki, gələn odur...


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073
“AZƏRBAYC
**Telefon: 538-**
**Fa**
**adalet**
**Qəzetdə “**
**məlumatl**